# ŞİRVANDA XALÇA MƏMULATI İSTEHSALI TARİXİNDƏN

**Emiliya Əliyeva**
*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix*
*İnstitutunun aparıcı elmi işçisi, t.e.f.d., dosent*
*mustafayev1954@list.ru*

**FROM THE HISTORY OF CARPET MANUFACTURING IN SIRVAN**

**Emiliya Aliyeva**

**Summary**

The Shirvan region, which has been known as a developed trade and handicraft center of Az erbaijan since ancient times, is also famous for its exquisite carpet products. The wide spread of sheep breeding, which provides wool as the main raw material for carpet making, the region's wealth of natural dyes necessary for dyeing wool threads in different colors, and most importantly, the abundance of labor in the form of Azerbaijani women, created favorable conditions for the development of the art of carpet weaving in Shirvan. As in most carpet-making centers of Azerbaijan, the art of carpet-making in Shirvan had a natural character for a long time and was directed to meeting the needs of the producers. Starting from the second half of the 19th century, the sharp increase in the demand for carpet products in the world market, as in other regions of Azerbaijan, led to the rapid spread of the art of carpet weaving in Shirvan and the characteristic of handicraft art. Carpet products woven in Goychay and Shamakhi districts, which are the main carpet-making centers of Shirvan, were exported to foreign countries, primarily to Turkey.

**Keywords:** Shirvan, sheep farming, wool, carpet weaving, trade

**ŞİRVANDA XALÇA MƏMULATI İSTEHSALI TARİXİNDƏN**

**Emiliya Əliyeva**

**Xülasə**

Azərbaycanın inkişaf etmiş ticarət və sənətkarlıq mərkəzi kimi tanınan Şirvan rayonu Azərbaycan qədim zamanlardan bəri öz incə xalça məhsulları ilə də məşhurdur. Xalçaçılıqda əsas xammal kimi yunu təmin edən qoyunçuluğun geniş yayılması, rayonda yun saplarının müxtəlif rənglərə boyanması üçün zəruri olan təbii boyalarla zənginliyi, ən əsası isə Azərbaycan qadınlarının timsalında əməyinin bolluğu, xalqımızın qürurunu yaradıb. Şirvanda xalçaçılıq sənətinin inkişafı üçün əlverişli şərait. Azərbaycanın əksər xalçaçılıq mərkəzlərində olduğu kimi, Şirvanda da xalçaçılıq sənəti uzun müddət təbii xarakter daşımış və istehsalçıların tələbatının ödənilməsinə yönəlmişdir. XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanın digər bölgələrində olduğu kimi dünya bazarında xalça məmulatlarına tələbatın kəskin artması Şirvanda da xalçaçılıq sənətinin sürətlə yayılmasına və sənətkarlıq sənətinin səciyyəvi xüsusiyyətlərinə səbəb oldu.. Şirvanın əsas xalçaçılıq mərkəzləri olan Göyçay və Şamaxı rayonlarında toxunan xalça məmulatları xarici ölkələrə, ilk növbədə Türkiyəyə ixrac edilirdi.

**Açar sözlər:** Şirvan, qoyunçuluq, yun, xalçaçılıq, ticarət

Qədim Şirvan torpağı mühüm ticarət və sənətkarlıq mərkəzi kimi yüzilliklər boyu yalnız Azərbaycanda deyil, bütün Yaxın Şərqdə, Avropada və Rusiyada məşhur olmuşdur. Dünyanın müxtəlif ölkələrindən Şamaxı şəhərinə gələn tacirlər bölgədə istehsal edilən xam ipək və yüksək keyfiyyətli müxtəlif növ ipək parçalarla qızğın ticarət edirdilər. Orta əsrlər dövründə Azərbaycanda olmuş səyyahların verdikləri məlumatlardan aydın olur ki, Səfəvilər dövlətinin şimalında yerləşən Şirvan bəylərbəyiliyi həm də özünün müxtəlif növ xalça məlumatı ilə məşhur olmuşdur. XVI əsrin 70-ci illərində Şirvanda olmuş ingilis səyyahı D.Deket yazırdı ki, "burada elə adam yoxdur ki, hətta ən yoxsul adamlar belə, yaxşı və ya pis olmasından asılı olmayaraq, xalça üzərində oturmasın; adətən onların oturduqları bütün ev və yaxud otaqlar xalılarla döşənmişdir"[5,s.247,260]. Şirvanda toxunan

xalçalardan sarayların, varlı evlərinin, ictimai binaların da bəzədilməsində istifadə edilidi. 1562-ci ildə Şirvan bəylərbəyi Abdulla bəy Ustaclının yay iqamətgahında olmuş ingilis taciri və diplomatı A.Cenkinson yazırdı ki, bəylərbəyinin “çadırının bütün döşəməsi bahalı xalçalarla döşənmişdir, onların altına isə qızıl və gümüşlə toxunmuş kvadrat xalça salınmışdır”[5,s.203]. Şirvanda toxunan xalçalar yerli əhalinin tələbatını ödəməklə yanaşı bir çox xarici ölkələrə də ixrac edilirdi. XVII əsrin 80-ci illərində Azərbaycandan Rusiyaya ixrac edilən mallar arasında Şamaxıda toxunmuş xalçaların olması da bunu təsdiq edir. Hazırda dünyanın bir çox məşhur muzeylərində saxlanılan bəzi Şamaxı xalçalarının da toxunma tarixi kimi XVII əsr göstərilir[6,s.180]. Göründüyü kimi, Şirvan bölgəsində hələ XVI-XVII əsrlərdə xalça məmulatı istehsalı geniş miqyas almışdı. Sonralar özlərinin xalça məmulatı ilə şöhrət qazanmış Azərbaycanın bəzi xalçaçılıq mərkəzlərindən fərqli olaraq Şirvan bölgəsində xalçaçılığın tədricən əmtəə-pul münasibətlərinə cəlb olunması özünü aşkar şəkildə göstərməyə başlamışdı. Oxşar vəziyyət XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərini əhatə edən xanlıqlar dövrü üçün də xarakterik idi. Bu dövrdə də qoyunçuluqla məşğul olan əhali əldə etdiyi yüksək keyfiyyətli yundan həm öz ehtiyaclarını ödəmək, həm də satış məqsədilə xalça, palaz, kilim, mafraş, kisə, çul və s. toxuyurdu. Bununla belə, son orta əsrlər dövründə istehsal edilən bu məmulatların böyük hissəsi istehsalçıların məişət tələblərinin ödənilməsi üçün nəzərdə tutulduğundan xalçaçılıq sənətinin tamamilə kustar sənət səviyyəsinə yüksəlməsindən danışmaq olmaz.

Xanlıqlar dövründə Azərbaycanın əksər bölgələrində xalça toxuculuğunun xarakterik xüsusiyyətlərindən biri xalça məmulatlarının tədricən xan xəzinəsinə ödənilən natural vergilərin siyahısına daxil edilməsi idi. Qoyunçuluqla məşğul olan əhalidən müxtəlif növ natural vergilərin əvəzində çirkli yun, yun iplik, karvan ticarəti üçün mühüm əhəmiyyət kəsb edən çuval, kəndir, çul, yük yəhərlərinə üz çəkmək üçün yun parça və s. toplanması daha geniş yayılmışdı. Bu proses özünü Quba, Qarabağ və Şamaxı xanlıqlarında daha aydın göstərirdi. Qarabağ xanlığında Qasım bəy tərəfindən idarə edilən Qorunzur kəndinin əhalisi malcəhət vergisi kimi hər il 2 cüt çuval, 1 batman yun iplik, yük yəhərinə üz çəkmək üçün 40 arşın yun parça və 1 batman yun iplik ödəyirdi. Bu xanlıqda natural vergi kimi xalça və kilim, bəzi hallarda isə onların əvəzində pul toplanılması hallarına da rast gəlinirdi[2,v87-88,103].

Əldə olan materialların təhlili göstərir ki, Qarabağ xanlığı ilə müqayisədə Şamaxı xanlığında xalça məmulatı istehsalı və onun əsas xammal bazasını təşkil edən qoyunçuluq əmtəə-pul münasibətlərinə daha çox cəlb olunmuşdu. Bu fikri 1820-ci ildə tərtib edilmiş “Şirvan əyalətinin təsviri” adlı sənəddə verilmiş məlumatlar da təsdiq edir. Bu məlumatlar əsasında apardığımız araşdırmalar göstərir ki, Mustafa xanın (1892-1820) hakimiyyəti dövründə Şamaxı xanlığında xalça məmulatı istehsalı artıq vergi obyektinə çevrilmişdi və xan xəzinəsinin əsas gəlir mənbələrindən birini təşkil etməyə başlamışdı. Belə ki, xan hakimiyyəti hər il sursata vergisi kimi xanlığın Xançobanı mahalının 30 kədindən 27 ədəd xalça və 36 ədəd kilim, Elat mahalının 6 kəndindən 13 ədəd xalça və 9 ədəd kilim, Qoşun mahalının 7 kəndindən 14 ədəd xalça və 7 ədəd kilim, Qəbristan mahalının 13 kəndindən isə 41 ədəd xalça və 44 ədəd kilim toplayırdı[1,v.49ar-99]. Bu statistik məlumatlar həm də onu söyləməyə əsas verir ki, xanlıqlar dövründə Şamaxı xanlığının ən azı 56 kəndində xalça məmulatı istehsalı yüksək inkişaf səviyyəsinə çatmışdı. Orta əsrlər dövründə sursata vergisinin istehsal edilmiş məhsulun 1/10 hissəsini təşkil etdiyini nəzərə alsaq, bütövlükdə Şamaxı xanlığında xalça məmulatı istehsalının ümumi həcmi haqqında müəyyən təsəvvür əldə etmək olar.

Şamaxı xanlığında xalça məmulatlarının natural vergilərə daxil edilməsini, hər şeydən əvvəl xarici bazarlarda bu məmulatlara tələbatın getdikcə artması ilə əlaqələndirmək lazımdır. Yerli əhalidən natural vergi kimi xalça və palaz toplayan Azərbaycan xanları onları özlərinin ticarət agentləri vasitəsilə xarici bazarlara çıxarır və böyük qazanc əldə edirdilər. Bu işlə daha çox Şamaxı tacirləri məşğul olurdular. Onlar yalnız Şamaxı xanlığında deyil, Qarabağ və Quba xanlıqlarında da istehsal edilmiş xalça məmulatları ilə ticarət edirdilər[8,s.11].

Azərbaycanda XIX əsrin əvvəllərindən başlamış rus müstəmləkə rejimi Şirvanın inzibati ərazi bölgüsündə də əsaslı dəyişikliklərə gətirib çıxardı. 1805-ci ildə Rusiyanın tərkibinə qatılan Şamaxı xanlığı 1820-ci ildə ləğv edildi və əvəzində Şirvan əyaləti yaradıldı. Sonralar Şirvan bölgəsinə aid olan ərazilərin inzibati bölgüsündə daha bir neçə dəfə dəyişiklik edildi. Çar hökumətinin 1840-cı

ildə keçirdiyi inzibati islahata görə Şirvan əyaləti yeni yaradılmış Xəzər vilayətinin tərkibində Şamaxı qəzasına çevrildi. Şamaxı qəzası 1846-cı ildə yaradılmış eyni adlı quberniyanın tərkibində olmuşdur. 1859-cu ildə Şamaxı şəhərində baş vermiş zəlzələdən sonra quberniya mərkəzinin Bakı şəhərinə köçürülməsi ilə əlaqədar quberniya Bakı quberniyası adlandırıldı. 1867-ci ildə Şirvan bölgəsinə aid olan torpaqlarda daha bir qəza – Göyçay qəzası yaradılmışdır[3,s.120,212]. Bu deyi-lənləri nəzərə alaraq əsas diqqəti XIX əsrin sonu – XX əsrin əvvəllərində tarixi Şirvan torpaqlarında mövcud olmuş Şamaxı və Göyçay qəzalarında xalça məmulatı istehsalının vəziyyətinin araşdırıl-masına yönəltməyə çalışacağıq.

Azərbaycanın Rusiya tərəfindən işğalının başa çatmasından sonra bölgədə yaranmış siyasi sabitlik Şirvan bölgəsində də təsərrüfatın müxtəlif sahələrinin, o cümlədən xalça məmulatı istehsalı-nın əsas xammal bazası olan qoyunçuluğun inkişafı üçün əlverişli şərait yaratdı. “Qafqaz arxasındakı Rusiya mülklərinin icmal”nın üçüncü cildində verilmiş məlumatdan aydın olur ki, XIX əsrin 30-cu illərinin əvvəllərində Şirvan əyalətində 40 min baş qoyun, 1000 baş dəvə saxlanılırdı [12,s.62]. Lakin həmin mənbənin “Köçəri şirvanlılar haqqında” adlı bölməsində verilən məlumat-dan aydın olur ki, bölgədə yaşayan xalçaçıların yunla təmin edilməsində ən azı 430 min baş qoyuna sahib olan “köçəri” adlandırılan əhali daha böyük rol oynayırdı. Bu məlumatlar bir də onu göstərir ki, həmin dövrdə Şirvanda qoyunçuluq özünü aydın şəkildə büruzə verən əmtəə xarakteri daşımağa başlamışdı. Belə ki, istehsal edilən süd, yağ, pendir və xüsusilə yunun böyük hissəsi satış üçün nəzərdə tutulurdu. Yunun bir hissəsini xalça, corab, keçə və çul toxumaq üçün özündə saxlayan həmin əhali onun böyük hissəsini satışa çıxarırdı. Şirvan əyalətində satışa çıxarılan yunun illik həcmi 30 min pud təşkil edirdi. Qoyunçuluğun nisbətən zəif inkişaf etdiyi Şirvan kəndlərinin əhalisi tərəfindən alınan həmin yundan daha çox mahud parça istehsal edilirdi[12,s.138-139].

Azərbaycanın əksər xalçaçılıq mərkəzlərində oluğu kimi, Şirvanda da xalça məmulatı istehsalı XIX əsrin ikinci yarısından, xüsusilə Cənubi Qafqaz dəmir yolunun istifadəyə verilməsindən sonra öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bir tərəfdən Rusiya və Avropa bazarlarında Azərbaycanda istehsal olunan xalça məmulatlarına tələbatın kəskin şəkildə artması, digər tərəfdən isə onun dəmir yolu ilə ixracının tez və ucuz başa gəlməsi xalçaçılığı gəlirli bir sahəyə çevirdi. Hazır xalça məmulatının ixracının xam yunun ixracından, ən azı 5 dəfə çox gəlir verməsi ona gətirib çıxardı ki, xalça istehsalı kəndli təsərrüfatının aparıcı sahələrindən birinə çevrilməyə başladı. Elə bunun nəticəsi idi ki, XIX əsrin sonlarında hər il Tiflis quberniyası vasitəsilə Rusiya və Qərbi Avropa ölkələrinə 1 mln rubl dəyərində xalça ixrac edilirdi[14,s.267]. İxrac edilən bu məhsulun əsas hissəsi Cənubi Qafqazın müsəlman əhalisinin, o cümlədən şirvanlıların payına düşürdü.

XIX əsrin 80-ci illərində Şirvanın iqtisadi həyatını tədqiq etmiş N.A.Abelov yazırdı ki, Şamaxı və Göyçay qəzalarında satış üçün xalça istehsalı yerdə qalan bütün sənətkarlıq məhsullarını üstələyir. O, xüsusi olaraq vurğulayırdı ki, “yerli əhalinin istər oturaq, istərsə də köçəri hissəsi hər yerdə müxtəlif xalça növlərinin istehsalı ilə məşğul olur; çox nadir kəndli evində [xalça toxumaq üçün] dəzgah yoxdur. Hər il [bölgədə] istehsal edilən xalçaların sayı bu işlə məşğul olan qadınların sayından asılıdır. Ən yaxşı xalça növləri Göyçay qəzasının Qarayazı və Zərdab qəsəbələrində, həmçinin Şamaxı qəzasının Ərəbqədim kəndində toxunur. Böyük sayda Şirvan xalçaları tələbatın çox olduğu Türkiyəyə yola salınır”[11,s.176]. Bütün bunlar göstərir ki, XIX əsrin son rübündən başlayaraq Azərbaycanın əksər xxalçaçılıq bölgələrində olduğu kimi Şirvanda da xalçaçılıq ev peşəsi səviyyəsindən çıxaraq aydın şəkildə ifadə olunan kustar sənət xarakteri kəsb etməyə başlamışdı.

Xalçaçılığın Şirvanda əhalinin əsas məşğuliyyət sahələrindən birinə çevrildiyini çar hökumətinin 1897-ci ildə keçirdiyi əhalinin birinci ümumi siyahıya alınmasında verilən ststistik məlumatlar da təsdiq edir. Həmin məlumatlar əsasında apardığımız hesablamalara görə yundan müxtəlf növ məmulatların hazırlanması ilə Göyçay qəzasında 2122 nəhər, Şamaxı qəzasında isə 1578 nəfər məşğul olurdu[13,s.142-145]. Bu sənətkarların Göyçay qəzasında 2108 nəfəri, Şamaxı qəzasında isə 1536 nəfəri ancaq xalça istehsalı ilə məşğul olurdu. Göründüyü kimi, 1897-ci ildə Şirvanın hər iki qəzasında xalça istehsalı ilə sənətkar məşğul olan sənətkarların ümumi sayı 3644 nəfərə çatırdı.

Yeri gəlmişkən qeyd edək ki, bədii və texniki xüsusiyyətlərinə görə Salyanda toxunan xalçalar Şirvanda toxunan xalçalarla oxşarlıq təşkil edirdi[4,s.59].

Xalçaçılq Şirvanın demək olar ki, bütün yaşayış məntəqələrində yayılsa da, ayrı-ayrı kəndlər istər istehsal edilən xalçaların sayına, istərsə də bədii-texniki xüsusiyyətlərinə görə bir-birindən fərqlənirdilər. Şamaxı qəzasına daxil olan Qobustan mahalının Çuxanlı, Mərəzəli, Sündü, Nabur, Udulu, Paşalı, Şorbağça, Qarasu kəndləri, Ağsu mahalının Bico Göylər, Qəşənd kəndləri, Göyçay qəzasının Kürdəmir, Şilyan, Sorsor, Mollakənd, Pirhəsənli, Padar və s. kəndləri, Salyan-Hacıqabul ərazisinin Xilə, Qarabağlı, Xələc, Çolaqlı, Qaradaşlı, Kolanı və s. kəndləri özlərinin yüksək keyfiyyətli müxtəlif növ yüksək keyfiyyətli xalça məmulatlarına görə seçilirdilər[9,s.72;190,s.43].

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1.Azərb. DTA, f.24, siy1, iş 84
2.Azərb. DTA, f.24, siy1, iş 144
3.Azərbaycan tarixi. 7 cilddə, IV c., Bakı, "Elm", 2007
4.Алиева А. Ворсовые ковры Азербайджана XIX – XX начала века. Баку, Элм, 1987
5.Английские путешественники в Московском государстве в XVI веке. Перевод с англ. Ю.В. Готье, Л., 1937
6.Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII в.в. Баку, «Элм», 1982
7.Гулишамбаров С. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894
8.Исаев М.Д. Ковровое производство Закавказье. Тифлис, 1932
9.Кавказский календарь на 1897 год. Тифлис, 1896
10.Кавказский календарь на 1901 год. Тифлис, 1900
11.МИЭБГКЗК, т. VI, Тифлис, 1888
12.ОРВЗК, ч. III, СПб., 1836
13.Первая всеобщая перепись населения Российской империи 1897 г., т. LXIII. Бакинская губерния. Издание центрального статистического комитета МВД России. 1905
14.Хатисов К.Кустарные промыслы Закавказского края. //Отчеты и исследования по кустарной промышленности России. т. I, СПб.,1894